

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 238 (21.648)

14 dekabr 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Dekabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahunu və xanımı Sara Netanyahunu qarşılayıblar.

Azərbaycan Prezidenti İlham Əliyev və İsrailin Baş naziri Benyamin Netanyahu rəsmi foto çəkdiriblər.

Daha sonra Prezident İlham Əliyevin və Baş nazir Benyamin Netanyahunun təkbətək görüşü olub.

* * *

Dekabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu ilə təkbətək görüşü başa çatdıqdan sonra Azərbaycan-İsrail sənədlərinin imzalanması mərasimi olub.

* * *

Dekabrın 13-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu mətbuata bəyanatlarla çıxış ediblər.

## Naxçıvanda müasir rabitə sistemi yaradılıb

***Muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli poçt-rabitə xidmətlərinin göstərilməsi sahəsində həyata keçirilən tədbirlər noyabr ayında da davam etdirilib.***

Bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrində sürətli və genişzolaqlı internetdən istifadə imkanları yaradılıb. Bu da istifadəçilərin sayının artmasında özünü göstərir. Belə ki, noyabr ayında, ümumilikdə, muxtar respublika üzrə 3240 metr fiber-optik kabel xətti çəkilib, 484 abunəçi genişzolaqlı internetlə təmin olunub.

Əhalinin telefon çəkilişinə olan tələbatı nəzərə alınaraq Babək rayonunun Hacıvar kəndində 384, Şərur rayonunun Ərəbyengicə kəndində 304, Arbatan, Çəmənli və Arpaçay kəndlərində isə 384 nömrə tutumlu yeni avtomat telefon stansiyaları quraşdırılıb. Bu dövrdə Şərur rayonunun Yuxarı Daşarx, Kürkənd, Dərəkənd, Babək rayonunun Naxışnərgiz, Xal-xal və Şahbuz rayonunun Gömür kəndlərində mövcud avtomat telefon stansiyaları 384 nömrə tutumlu yeni nəsil NGN tipli avtomat telefon stansiyaları ilə əvəz olunub. Bu sahədə həyata keçirilən tədbirlər nəticəsində 270 yeni telefon nömrəsi istismara verilib.

Naxtel 4G nömrələrinin və ödəmə kartlarının poçt bölmələrində satışının həyata keçirilməsi üçün "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən müvafiq işlər görülür. Belə ki, Naxçıvan şəhərində yerləşən bütün poçt bölmələrində və Şərur rayonunun 10 poçt bölməsində Naxtel nömrələrinin və ödəmə kartlarının satışı üçün avadanlıqlar quraşdırılaraq şəbəkəyə qoşulub.

Naxçıvanda yeni texnologiyaların tətbiqi və inkişafı bu sahə üzrə ixtisaslı kadrların hazırlanmasını da zəruri edir. İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində təşkil olunan kompüter kursları bu mənada mühüm əhəmiyyət daşıyır. Ötən ay mərkəzdə 95 dinləyicinin cəlb olunduğu 9 ümumi və 15 fərdi qrup yaradılıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

***İqtisadi inkişafın bütün mərhələlərində bank-kredit müəssisələrinin real sektora göstərdiyi kredit dəstəyi dinamik inkişafı təmin edən mühüm şərtlərdəndir. Bankların həyata keçirdiyi kredit qoyuluşları kənd təsərrüfatı, yerli sənaye və istehlak malları istehsalının həcminin artması və yeni iş yerlərinin yaradılmasında mühüm rol oynayır.***

## Kreditləşmə uğurla aparılır

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar da ötən dövrdə öz fəaliyyətini regionda yeni layihələrin həyata keçirilməsi üzrə özəl sektorun dəstəklənməsi, əhali əmanətlərinin banklara cəlb olunması və bankçılıq sahəsində mütərəqqi yeniliklərin tətbiqi istiqamətində qurub.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublika İdarəsindən aldığımız məlumatda deyilir ki, 1 dekabr 2016-cı il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 109 milyon 7 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 8 milyon 576 min manat, uzunmüddətli kredit qoyuluşu isə 100 milyon 431 min manat təşkil edir. Bank və kredit təşkilatları tərəfindən təkcə 2016-cı ilin 11 ayı ərzində 39 milyon 798 min manat kredit verilib. Bunun 10 milyon 13 min manatını qısamüddətli, 29 milyon 785 min manatını isə uzunmüddətli kreditlər təşkil edir. Verilmiş kreditin 9 milyon 701 min manatı kənd təsərrüfatı, 10 milyon 322 min manatı sənaye və digər sahələrə yönəldilib.

Qeyd edək ki, ötən dövrdə verilmiş kreditlərin 37,6 faizini kiçikhəcmli kreditlər təşkil edib. Gələcəkdə belə kreditlərin verilməsinin həcminin artırılması nəzərdə tutulub.

## Elektrik enerjisi təminatı diqqət mərkəzindədir



***Muxtar respublikada elektrik enerjisi təsərrüfatında payız-qış mövsümünə hazırlığın vaxtında həyata keçirilməsi istehlakçıların dayanıqlı enerji təminatına imkan verir.***

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi tərəfindən noyabr ayında elektrik stansiyalarında, yüksək və alçaq gərginlikli elektrik verilişi xətlərində, müxtəlif gərginlikli transformator yarımstansiyalarında əsaslı və cari təmir işləri aparılmış, müxtəlif gərginlikli elektrik verilişi xətləri çəkilmiş, Naxçıvan şəhərində və rayon mərkəzlərində mövcud hava elektrik verilişi xətlərinin kabel xətləri ilə əvəz edilməsi sahəsində tədbirlər davam etdirilmişdir. Belə ki, qeyd olunan dövrdə muxtar respublikanın şəhər və kəndlərində 3 yeni transformator yarımstansiyası quraşdırılmış, 10 kilometr uzunluğunda yeni elektrik verilişi xətti çəkilmiş, 2 kilometrlik hava elektrik verilişi xətti kabel xətti ilə əvəz edilmişdir. Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində isə 9 transformator təmir edilərək şəbəkələrə qaytarılmışdır.

Muxtar respublikada alternativ və bərpa edilən enerjidən istifadə diqqət mərkəzində saxlanılır, yeni elektrik stansiyaları tikilərək istifadəyə verilir. Bu sahədə görülən işlərin nəticəsidir ki, noyabr ayında muxtar respublikada istehsal olunan elektrik enerjisinin 35 faizi su və günəş elektrik stansiyalarının payına düşmüşdür.

Yaşayış məntəqələrində elektrik enerjisindən sayğacdankənar istifadə edilməsinin qarşısının alınması üçün mütəmadi reydlər keçirilmiş, Naxçıvan şəhərində 920 smart-karttipli sayğac quraşdırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin mətbuat xidməti***

## Çəmənli kəndində tikilən yeni obyektlər təhvilə hazırlanır

***Muxtar respublikamızın ayrılmaz tərkib hissəsinə çevrilmiş tikinti-quruculuq işlərinin həcmi ildən-ilə genişlənir. Bu tədbirlər regionun bütün yaşayış məntəqələrini əhatə edir.***

Cari ildə quruculuq tədbirlərindən Şərur rayonunun Çəmənli kəndinə də pay düşüb. Burada kompleks quruculuq tədbirləri həyata keçirilib. Belə tədbirlərdən biri kənddə təhsilin müasir standartlara uyğun şəkildə qurulması üçün inşa olunan tam orta məktəbin binasıdır. Təhsil ocağının tikintisində kəndin gələcək perspektivi nəzərə alınıb. Belə ki, yeni bina 360 şagird yerlikdir. Zirzəmi ilə birlikdə üç mərtəbədən ibarət olan məktəbdə 20 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, 2 elektron lövhəli sinif, kompüter otağı, hərbi və şahmat kabinələri, idman zalı, bufet müəllim və şagirdlərin ixtiyarına veriləcək.

Çəmənlidə inşa edilən yeni kənd mərkəzi də sakinlərin böyük sevincinə səbəb olub. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyasının ərazi ilk təşkilatı və digər yerli qurumların normal fəaliyyəti üçün hərtərəfli şərait yaradılması bina ikimərtəbəlidir.

Yaşayış məntəqəsində tikintisi başa çatdırılmış yeni obyektlərdən biri də xidmət mərkəzidir. Burada ərzaq, sənaye və təsərrüfat malları mağazaları, ət satışı dükanı, bərbər və qadın gözəllik salonu fəaliyyət göstərəcək.

Yeni obyektlərin yerləşdikləri ərazidə abadlıq işləri görülür, su və işıqlandırma sistemi quraşdırılıb.

İnşaatçılar təhvilə hazırladıqları binaların tikintisində keyfiyyət amilinə ciddi diqqət yetiriblər.

**Xəbərlər şöbəsi**

## Muxtar respublikada 493 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır

***Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən daşınmaz əmlakın kadastrı və reyestrinin təkmilləşdirilməsi sahəsində ardıcıl fəaliyyətin təmin edilməsi, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi 2016-cı ilin noyabr ayında da diqqətdə saxlanılmışdır.***

Ötən ay daşınmaz əmlakın hüquqi ekspertizası və reyestrin aparılması sahəsində görülən işlər davam etdirilmiş, muxtar respublikada 493 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır. Təsdiq olunmuş qrafik əsasında Naxçıvan şəhərinin Qaraxanbəyli, Şərur rayonunun Çərçiboğan və Aşağı Yaycı, Ordubad rayonunun Dəstə və Kələntər Dizə, Babək rayonunun Şıxmahmud və Çeşməbasar, Şahbuz rayonunun Badamlı, Culfa rayonunun Ərəfsə kəndlərində vətəndaşlara səyyari xidmət göstərilmiş, ümumilikdə, 87 müraciətə baxılmışdır. Bu dövrdə 512 texniki sənəd hazırlanaraq qeydiyyat üçün məlumat Milli Qeydiyyat Sisteminə daxil edilmiş, 361 texniki sənəd hazırlanmışdır.

Əmlakların real bazar münasibətlərinə uyğun qiymətləndirilməsi vacib məsələdir. Noyabr ayında daxil olmuş müraciətlərə əsasən 14 əmlak qiymətləndirilmiş, yeni yaranmış 49 daşınmaz əmlak obyektinə ünvan verilmişdir. "Dədə Qorqud yurdu Naxçıvan" tarixi və etnoqrafik atlasının tərtib olunması ilə əlaqədar 240 xəritə hazırlanaraq Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinə təqdim olunmuşdur. Bundan başqa, Şərur rayonunun Çərçiboğan, Çomaxtur və Danyeri bələdiyyələrinə aid sərhəd xəritələri və yerquruluşu materialları elektron variantda işlənmiş, Culfa rayonunun Qazançı, Ləkətağ, Milax və Saltaq bələdiyyələrinin mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin xəritələri hazırlanmışdır.

Sədərək rayonunda icra nümayəndələrinin və bələdiyyələrin iştirakı ilə əkin atlaslarına uyğun meyvə-tərəvəz əkinlərinin aparılması və torpaqlardan səmərəli istifadə ilə bağlı maarifləndirici tədbirlər keçirilmiş, Bakı şəhərindən mütəxəssis dəvət olunaraq müasir geodeziya-ölçü cihazlarından istifadə ilə bağlı 3 günlük treninq təşkil olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Ümummilli lider Heydər Əliyevin xalqımız qarşısında xidmətləri misilsiz və əvəzolunmazdır. Misilsizdir ona görə ki, bu xidmətlərin həcminin miqyası yoxdur. Əvəzolunmazdır ona görə ki, Vətəni və xalqı qarşısında taleyüklü xidmətləri Onun qədər kimsə etməyib. Tarixdə öz ölkəsini çətinliklərdən qurtaran, ona yeni həyat bəxş edən liderlər çox olub. Heydər Əliyev dühasının gücü isə ondadır ki, O, ölkəsinə iki fərqli siyasi quruluşda, ancaq tək amalla xidmət edib. Hansı ki, bu amalın kökündə əsas yeri Azərbaycanın azadlığı və müstəqilliyi tutub. Buna görə də müasir müstəqil Azərbaycanın hərtərəfli inkişafında vaxtilə Onun qurub-yaratdığı, əsasını qoyduğu siyasi kurs dayanır.*



# Heydər Əliyev adına Hərbi Liseydə gənc hərbçi kadrlar yetişdirilir

Bu kursun əsas və öndə gələn istiqamətlərindən biri, daha doğrusu, birincisi ordu quruculuğu ilə bağlıdır. Çünki ordu olmadan heç bir ölkənin təhlükəsizliyindən, müstəqilliyindən, deməli həm də inkişafından söhbət gedə bilməz. Ordu quruculuğunu isə bu sahənin bilikli mütəxəssisləri olmadan həyata keçirmək mümkün deyildir. Elə buna görədir ki, hələ Sovet İttifaqı dövründə, azərbaycanlıların hərb sahəsindən uzaq salındığı zamanlarda ulu öndərimizin əzmi və təşəbbüskarlığı sayəsində ölkəmizdə hərbi təhsilin inkişafına xidmət edən islahatlar aparılıb, 1971-ci ildə Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəbi yaradılıb. 1972-ci ildən başlayaraq yüzlərlə azərbaycanlı gəncin Sovet İttifaqının müxtəlif ali hərbi məktəblərinə təhsil almağa göndərilməsi isə ümummilli liderimizin gələcək müstəqil Azərbaycanın milli ordusunu formalaşdıracaq hərbçi kadrların yetişdirilməsi üçün atdığı ilk addımlar idi.

Xalqımızın böyük oğlu ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra milli ordu quruculuğu sahəsində daha geniş tədbirlər görüldü. ***"Müstəqil Azərbaycanın bu gün də, gələcəkdə də çox güclü ordusu olmalıdır. Olmalıdır ki, torpaqlarımız bundan sonra işğal edilməsin. Olmalıdır ki, torpaqlarımızın hər bir qarışı qoruna bilsin"***, – deyən ulu öndərin müdrikliyi və uzaqgörənliyi sayəsində ölkəmizdə qüdrətli milli ordu yaradılıb, onun ixtisaslı hərbçi kadrlarla təminatına böyük qayğı ilə yanaşılıb. Naxçıvanda hərbi təmayüllü məktəbin yaradılması da məhz bu uzaqgörənliyin nəticəsində mümkün olub. Dahi rəhbərin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı yaradılıb.

1999-cu ilin oktyabrında filialın yeni tədris korpusunun açılışında iştirak edən ümummilli liderimiz bu hərbi təhsil müəssisəsinin yaradılması zərurətindən danışaraq deyib: ***"Tarixən naxçıvanlı gənclər zabit peşəsinə yiyələnməyə meyilli olublar. Tarixi vərəqləyin, görün Naxçıvandan vaxtilə nə qədər böyük sərkərdələr çıxıbdır. Elə XIX-XX əsrlərin tarixini götürək. Naxçıvan xanları – Kəngərlilər sülaləsindən çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanski idi. Əgər sonrakı dövrü, sovet hakimiyyəti dövrünü götürsək, Naxçıvandan yüksək rütbəli, çox dəyərli zabitlər çıxıbdır. Ona görə də burada olan gəncləri hərbi peşəyə cəlb etmək üçün hərbi liseyin filialının yaradılması çox zəruri idi".***

Həmin dövrdə 56 kursantla fəaliyyətə başlayan filial ötən dövr ərzində böyük inkişaf yolu keçib, Naxçıvanda gənclərin hərb sənətinə marağının artmasına səbəb olub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılıb. Bu təhsil ocağında ötən dövrdə geniş quruculuq işləri aparılıb, burada ikimərtəbəli qərargah binası, müasir tədris korpusu və yataqxana binası istifadəyə verilib, liseyin maddi-texniki bazası xeyli gücləndirilib. Hərbi liseyə növbəti səfərimiz zamanı burada yaradılmış şərait yenə də nəzərimizdən qaçmadı. Belə ki, burada kursantların hərbi biliklərə yiyələnməsi üçün hər cür şərait yaradılıb, tədris və yataqxana korpusları ən müasir avadanlıqlarla təchiz olunub. Yataqxana binasında müasir məişət şəraiti ilə yanaşı, kursantların asudə vaxtlarının səmərəli təşkili də təmin edilib. Bundan əlavə, liseydə kursantların sağlamlığı və fiziki hazırlığı da diqqət mərkəzində saxlanılır. Müasir avadanlıqlarla təchiz olunmuş tibb məntəqəsi, idman zalı, futbol meydançası, açıq və qapalı



idman qurğuları kursantların istifadəsindədir. Maddi-texniki bazanın təkmilləşdirilməsi ötən müddətdə tədrisin keyfiyyətini yüksəldib. Belə ki, liseydə müasir fənn kabinələri, kompüter və linqafon otaqları, elektron lövhəli siniflər, elmi, bədii, hərbi və tarixi ədəbiyyatlarla zənginləşdirilmiş kitabxana tədrisin yüksək səviyyədə aparılmasına imkan verir. Hazırda liseydə tədris üzrə 14, idman üzrə 12, mədəni-maarif üzrə 6 dərnək fəaliyyət göstərir. Yaradılmış şəraitin nəticəsidir ki, Heydər Əliyev adına Hərbi Liseyin uğurları ildən-ilə yüksəlir, ali hərbi məktəb və akademiyalara qəbul olunan kursantların sayı artır. Məktəbdə olarkən öyrəndik ki, bu il hərbi liseyin məzunlarından 199-u müxtəlif ali hərbi məktəblərə qəbul olunub, o cümlədən 8 kursant ali hərbi təhsil almaq üçün Rusiya Federasiyasına göndərilib, 1 nəfər isə Türkiyə Respublikasında təhsil alır.

2016-2017-ci tədris ilində hərbi liseyə qəbul üçün 987 nəfər sənəd verib, onlardan 152-si kursant adını qazanıb. Hazırda hərbi liseydə 700-ə yaxın kursant təhsil alır. Onlardan 100-ə yaxını Azərbaycanın digər bölgələrindən olanlardır. Son illərdə ölkəmizin digər regionlarından oxumaq üçün bura müraciət edənlərin sayı artmaqdadır. Liseydə olarkən burada təhsil alan kursantlardan bir neçəsi ilə görüşüb söhbət etdik.



Elşad Məmmədov hərbi liseyin üçüncü kursunda təhsil alır. Culfa şəhərindəndir. Deyir ki, zabit olmaq onun uşaqlıq arzusudur. Elə bu arzu ilə də 3 il bundan əvvəl Heydər Əliyev adına Hərbi Liseyə üz tutub: – Hərbçi olmaq ən böyük arzum olub. Elə bu arzu ilə ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Hərbi Liseyə qəbul olmuşam. Bu liseydə oxumaq bizim üçün ikiqat məsuliyyətlidir. Birinci ona görə ki, kursant olmaq bizdən məsuliyyətli olmağı tələb edir. İkincisi isə ulu öndərimizin adını daşıyan məktəbdə oxumaq bizi daha yaxşı oxumağa, daha bilikli olmağa sövq edir. Ötən müddətdə bu məsuliyyəti dərindən dərk edərək yaxşı oxumağa, əsl hərbçi kimi yetişməyə səy göstərmişik. İnanırıq ki, bundan sonrakı ali hərbi təhsilimizdə də bu meyarları qoruyacaq, Vətənimizin gələcək müdafiəçiləri kimi, əsl zabit kimi formalaşacağıq.

Ali hərbi təhsilini hansı ixtisas üzrə davam etdirmək istəyirsən? sualımıza bu cavabı alırıq: – Hərbi aviasiya ən çox sevdiyim sahədir. Buna görə də təyyarəçi olmağı qarşıma məqsəd qoymuşam. İnanıram ki, bu arzuma çatacağam.



Füzuli rayonundan olan Əli Hacıyev isə hərbi liseyə bu il qəbul olunub. Onun dediklərindən: – Heydər Əliyev adına Hərbi Liseydə oxumaq çoxdankı arzum idi. Orta məktəbdə oxuyan zamandan hərbçi olmağı düşünürdüm. Artıq ilk addımı atmışam – ulu öndərimizin adını daşıyan hərbi liseydə oxuyuram. Burada oxumaq mənim üçün qürurvericidir. Savadlı, bilikli zabit olmaq üçün yaxşı oxumalı, hərbi işin incəliklərini dərindən öyrənməliyik. Liseyə gəlməmişdən əvvəl bu təhsil müəssisəsi haqqında az məlumatlı idim. Ancaq gəldikdən sonra burada kursantlar üçün mükəmməl şəraitin yaradıldığının şahidi oldum. Düşünürəm ki, belə bir hərtərəfli şəraitin yaradıldığı məktəbdə yaxşı oxumamaq mümkün deyil.

Ordubad rayonundan olan Murad Hacıyev isə liseyin son kursunda təhsil alır. Oxuduğu təhsil ocağı haqqında fikirlərini bizimlə bölüşən Murad dedi: – Heydər Əliyev adına Hərbi Lisey muxtar respublikamızda, eləcə də ölkəmizdə ən nümunəvi təhsil müəssisələrindəndir. Burada müxtəlif avadanlıqlarla təchiz edilmiş kabinələr, sinif otaqları, idman zalı, kitabxana və sair biz kursantların yaxşı təhsil almasına, sağlam, bilikli və vətənpərvər böyüməsinə şərait yaradır. Müəllimlərimizdən və komandirlərimizdən çox razıyıq. Onlar bizə öz övladları kimi qayğı göstərirlər, çətinliyimiz olanda onu həll edirlər, hamısından razıyıq. Dövlətimizə də minnətdarıq ki, bizim üçün belə bir şərait yaradıbdır. Məndən əvvəl danışan kursant yoldaşlarım dedilər ki, Heydər Əliyev adına Hərbi Liseydə oxumaq insandan böyük məsuliyyət tələb edir. Mən də bu fikirlərlə razıyam. Bildiyiniz kimi, orta ümumtəhsil məktəblərindən fərqli olaraq biz burada özümüzü müstəqil həyata hazırlayırıq, eyni zamanda gələcəyin hərbçiləri kimi yetişirik. Ulu öndərimizin də arzusu bu idi ki, gənclərimiz yaxşı təhsil alsın, vətənini sevsin, hansı sahədə çalışmasından asılı olmayaraq vətənpərvər olsun. Bu liseydə oxumağımızın bizim üçün əhəmiyyəti ondadır ki, bizə burada vətəni məhz ulu öndərimiz kimi sevməyi öyrədirlər, Vətənə məhz onun kimi xidmət etməyin yolunu göstərirlər. Digər tərəfdən, bizim üçün fəxrdir ki, gələcəyin hərbçisi kimi təhsil aldığımız liseyin adında əbədiyaşar liderimizin adı yaşayır. Məhz buna görə də Onun kimi oxumalı, Onun kimi Vətənimizə, xalqımıza xidmət etməliyik.

Kursantlardan Goranboy rayonundan Rəvan Məmmədov, Tovuz rayonundan Rəsul Həsənov, Naxçıvan şəhərinin Bulqan kəndindən Hüseyn Abbaszadə və digərləri də Heydər Əliyev adına Hərbi Liseydə təhsil aldıqlarına görə qürur duyduqlarını dedilər, belə bir məktəbdən məzun olacaqları üçün fəxr etdiklərini söylədilər.

*Bəli, Heydər Əliyev adına Hərbi Lisey artıq 12 ildir ki, nümunəvi təhsil müəssisəsi kimi Silahlı Qüvvələrimizin kadr təminatına öz töhfəsini verir. Ötən 12 ildə liseydən məzun olmuş kursantlar ali hərbi təhsil aldıqdan sonra ordumuzun müxtəlif hərbi birləşmələrində zabit kimi xidmət edirlər. Bu zabitlərin hər birinin hərbi karyerasında unudulmaz bir səhifə vardır ki, o da Heydər Əliyev adına Hərbi Liseydən başlanan yoldur. Bu müqəddəs yolun yolçuları həm də Heydər Əliyev yolunun davamçılarıdır.*

**Səbuhi HƏSƏNOV**

# Muxtar respublikada gənc sahibkarların fəaliyyətinə hərtərəfli şərait yaradılmışdır

*Naxçıvan Muxtar Respublikasında gənclərin iqtisadi fəallığının artırılması, onların sahibkarlıq fəaliyyətinə cəlb edilməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirilir, həmçinin gənclərin sahibkarlıq təşəbbüslərinin dəstəklənməsinə böyük diqqət və qayğı göstərilir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri sahibkarların problemləri ilə bilavasitə tanış olmaq üçün onlarla mütəmadi görüşlər keçirilməsinə xüsusi diqqət yetirir. Gənc sahibkarlara dövlət qayğısının ən yüksək səviyyədə bir daha təsdiqi olan bu görüşlər muxtar respublikada sahibkarlığın inkişafında yeni mərhələnin əsasını qoymuşdur.

Muxtar respublikada müxtəlif növdə ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbatın böyük hissəsi yerli istehsal hesabına ödənilir. Daxili bazarı yerli məhsullarla təmin edən müəssisələrdən biri "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətidir.

Müəssisədə bütün istehsal prosesləri avtomatlaşdırılmış, paketləyici avadanlıq quraşdırılmışdır. Bu da hazır məhsulu 200, 250 və 500 qramlıq taralarda qablaşdırmağa imkan verir.

Ötən müddət ərzində, ümumilikdə, cəmiyyətə duzüyütmə sexinin yenidən qurulması və mədən ərazisində təmir-bərkitmə işləri aparılması üçün Sahibkarlığa Kömək Fondundan 388 min 379 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Layihəyə uyğun olaraq işlər vaxtında və keyfiyyətlə yerinə yetirilmişdir.

2011-ci ildə muxtar respublikada sahibkarlığın inkişafına verdiyi töhfəyə görə "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyəti "Biznesdə Uğur" mükafatının "İlin ixracatçısı" nominasiyasına layiq görülmüşdür.

Naxçıvanda daha iki məhsulun – uşaq bezinin və tibbi spirtin istehsalına başlanılmışdır. Həmin məhsullar Naxçıvan şəhərində fəaliyyət göstərən "AKİ Əczaçılıq Anbarı" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yaradılan "Pambıq" Uşaq Bezi Fabrikində istehsal edilir.

Müəssisənin yaradılması və müasir texnoloji avadanlıqların alınıb quraşdırılmasına, ümumilikdə, 1 milyon 820 min manat vəsait sərf olunmuşdur ki, bunun da 700 min manatı muxtar respublikanın Sahibkarlığa Kömək Fondundan, 1 milyon 120 min manatı isə müəssisənin daxili imkanları hesabına ödənilmişdir.

İllik istehsal gücü 2 milyon 496 min ədəd şərti butulka tibbi spirt və 52 milyon 416 min ədəd uşaq bezi olan bu müəssisə muxtar respublikada yeganədir. İlkin hesablamalara görə, muxtar respublikanın tibbi spirtə olan illik tələbatı 360 min ədəd şərti butulka, uşaq bezinə olan tələbatı isə 22 milyon ədəddir.

Müəssisədə istehsal edilən uşaq bezi və tibbi spirtin yerli məhsul olaraq tanıdılması və daxili bazarın tələbatının öyrənilməsi məqsədilə tədbirlər həyata keçirilmişdir. Tibbi spirt 100 qramlıq şüşə taralarda, uşaq bezi isə 6 ölçüdə olmaqla müxtəlif tutumlu, nəfis tərtibatla bəzədilmiş paketlərdə "Pambıq" əmtəə nişanı ilə satışa çıxarılır. Əvvəllər eyniadlı məhsullar muxtar respublikaya xarici ölkələrdən idxal olunub əlavə daşınma xərcləri çəkilirdisə, bu müəssisənin fəaliyyətə başlaması ilə həmin problemlər aradan qaldırılıb, istehlakçıların daha münasib qiymətə keyfiyyətli yerli məhsullarla təmin olunmasına əlverişli şərait yaradılıb.

2014-cü ildə muxtar respublikanın biznes mühitinin yaxşılaşdırılması və sahibkarlığın inkişafına verdiyi dəstəyə görə "AKİ Əczaçılıq Anbarı" Məhdud Məsuliyyətli Cəmiyyəti "Biznesdə Uğur" mükafatının "İlin şirkəti" nominasiyasına layiq görülmüşdür.

Muxtar respublikamızın təbii sərvətlərindən səmərəli istifadə olunmaqla yeni emal və sənaye müəssisələri inşa edilmiş, bu sahədə güclü potensial yaradılmışdır. Belə istehsal müəssisələrindən biri də Babək rayonunun Sirab kəndində fəaliyyət göstərən "Savalan-S" kiçik müəssisəsidir.

Müəssisədə istehsal olunan məhsullara artan tələbatın ödənilməsi, yeni istehsal sahələrinin yaradılması və bunun nəticəsi olaraq, əlavə işçi qüvvəsinin cəlb edilməsi imkanı məhdud olduğundan yeni binanın tikilməsi, daha müasir texnoloji avadanlıqların alınıb gətirilməsi zərurəti yaranmışdır. Digər sahibkarlıq subyektləri kimi, bu müəssisə də dövlət qayğısından bəhrələnmişdir. Müəssisəyə Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondu tərəfindən 2012-ci ilin mart ayından başlayaraq mərhələlərlə, ümumilikdə, 130 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. 2013-cü ilin aprel ayında istifadəyə verilən müəssisədə istehsal gücü saatda 12 min ədəd şərti butulka olan daha müasir texnoloji avadanlıqlar quraşdırılmışdır. Hazırda müəssisədə "Qızıl su" əmtəə nişanı ilə müxtəlif çeşidlərdə limonad və mineral su istehsal olunur.

Biznesin inkişafına yaradılan şərait, bu imkanlardan faydalanmaq və mövcud perspektivlər hər bir gənc sahibkarın fəaliyyətinə geniş imkanlar açmışdır. Belə sahibkarlıq subyektlərindən biri də 2003-cü ildən fəaliyyətə başlayan "Karton Tara" MMC-dir. İllik istehsal gücü ayda 200 min qutu olan bu müəssisə muxtar respublikada fəaliyyət göstərən bütün növ istehlakçıların tələbatını yüksək səviyyədə, müxtəlif növ qablaşdırma məhsulları ilə təmin etməkdədir. Müasir texnologiyaların tətbiqi nəticəsində müəssisə bu gün muxtar respublikanın müxtəlif dizaynda büzməli karton və qutu məmulatlarına olan tələbatını ödəyə bilir.

Naxçıvan şəhərindəki "Fərda" şirniyyat istehsalı müəssisəsinin fəaliyyəti də diqqəti çəkir.

Bu istehsal sahəsinin yaradılmasına Sahibkarlığa Kömək Fondu tərəfindən və müəssisənin daxili imkanları hesabına 785 min manat vəsait sərf olunmuşdur.

2016-cı ilin yanvar ayında istifadəyə verilən müəssisənin yeni binasında istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət olunur. İstehsal edilən məhsulların birbaşa satışını təşkil etmək üçün Naxçıvan şəhərinin Heydər Əliyev prospektində, Əliqulu Qəmküsar küçəsində, "Cahan" Ticarət Mərkəzində və Şərur şəhərində müəssisənin mağazaları fəaliyyət göstərir. Eyni zamanda istehsal edilən məhsulların müəssisədə satışı üçün burada mağaza və kafe istifadəyə verilmişdir.

İstehlakçılara müxtəlif çeşidlərdə məhsullar təqdim edən müəssisədə gündəlik istehsal gücü 750 kiloqram olan Şərq, milli və Avropa şirniyyatları, 220 kiloqram rahatlokum, 80 kiloqram nanəli konfet və 560 kiloqram dondurma istehsalı sahələri var. Fəaliyyətə başladığı ilk illərdə 2-3 çeşiddə məhsul istehsal edilən müəssisədə hazırda 80 çeşiddə məhsul istehsal olunur. Daxili bazarın tələbatından artıq istehsal edilən məhsulların ölkəmizin paytaxtı Bakı şəhərində və digər regionlarda satışa çıxarılması planlaşdırılır.

Kənd təsərrüfatı sahəsində muxtar respublikanın malik olduğu zəngin ənənələr, təcrübəli işçi qüvvəsi və əlverişli torpaq-iqlim şəraiti, bu sahənin inkişafına göstərilən dövlət dəstəyi gənc sahibkarlar üçün aqrar sektoru maraqlı etməyə bilməzdi. Elə bu məqsədlə də gənc sahibkarlar tərəfindən "Xalaoğlu" kəndli-fermer təsərrüfatı və "Kırna" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılmışdır.

Gənc sahibkarlarımızdan olan Rafiq Əliyev də yaradılan münbit şəraitdən bəhrələnərək 2015-ci ildə Babək rayonunun Nehrəm kəndində "Xalaoğlu" kəndli-fermer təsərrüfatının fəaliyyət göstərməsinə nail olmuşdur.

İlkin mərhələdə müəssisə bir kiloqramlıq taralarda qatıq istehsalını həyata keçirirdisə, artıq müəssisə fəaliyyət dairəsini genişləndirərək "Xalaoğlu" tanıtım nişanı ilə qatıq, ayran, kərə yağı, dovğa və quş ətini ayrı-ayrı rayonlarda fəaliyyət göstərən xidmət mərkəzlərində satışa çıxarır.

"Kırna" Məhdud Məsuliyyətli Cəmiyyəti də muxtar respublikamızda sahibkarlığın inkişafına göstərilən qayğının bariz nümunəsidir. Quşçuluğun inkişafına əlavə stimul verən müəssisə 2011-ci ildən fəaliyyət göstərir. Müəssisənin yaradılmasına fond tərəfindən 800 min manat kredit ayrılmışdır.

Bu müəssisə muxtar respublika əhalisinin quş ətinə olan tələbatının daha dolğun və keyfiyyətlə ödənilməsində mühüm rol oynayır. Yüksəkkeyfiyyətli məhsul istehsalına nail olunması, istehsal edilən məhsulun daxili bazarda rəqabətədavamlılığının təmin edilməsi məqsədilə müəssisədə 2 təsərrüfat yaradılmış və müasir kəsim sexi qurulmuşdur.

Son illərdə xidmət sektoru da sürətlə genişlənir, bu sahədə xidmət günün tələblərinə uyğun inkişaf edir və yenilənir. Avtomobillərin sayının çoxalması onların təmiri işlərini həyata keçirən servis xidmət sahələrinə geniş tələbat yaradır. Buna görə də gənc sahibkarlar tərəfindən avtomobillərə servis xidməti müəssisələrinin yaradılmasına maraq artmışdır. Bu cür nümunəvi servis müəssisələrindən biri 2009-cu ildən Naxçıvan şəhərində fəaliyyət göstərən "Əlincə Qala" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Burada avtomobillərin təmiri və texniki xidmət həyata keçirilir. Həmin texniki təmir sahəsi müasir texnologiya və avadanlıqlarla təchiz edilmişdir.

Digər nümunəvi xidmət sahələrindən biri də 2010-cu ildən fəaliyyət göstərən "Məişət Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Müxtəlif növ geyimlərin etibarlı təmizlik ünvanı olan bu xidmət sahəsində Türkiyə və İtaliya mənşəli avadanlıqlar quraşdırılaraq məişət əşyalarının və geyim dəstlərinin quru və kimyəvi təmizlənməsi işləri həyata keçirilir. Burada yuyulma və quru kimyəvi təmizləmə ilə yanaşı, yumşaq mebellərin evdə təmizlənməsi və təmiri, evdən evə yük daşınması, məişət əşyalarının, istilik və su sistemlərinin təmiri xidmətləri göstərilir.

***Muxtar respublikada sahibkarlıq fəaliyyətinə başlayan gənclər və biznesini təkmilləşdirmək istəyən kiçik və orta sahibkarlar üçün davamlı maarifləndirmə tədbirlərinin təşkili, konsaltinq və informasiya xidmətlərinin göstərilməsi istiqamətində işlər davam etməkdədir. Əsas məqsəd gənclər tərəfindən yaradılmış yeni biznes subyektlərinin qısa zamanda rəqabətqabiliyyətliliyinin və inkişafının təmin olunması, kiçik sahibkarlıq subyektlərinə olan dəstəyin nümayiş etdirilməsi vasitəsilə investisiya mühitinin daha da yaxşılaşdırılmasıdır. Bu tədbirlər vasitəsilə gənc mütəxəssislərin potensialından səmərəli istifadə olunacaq, innovativ və perspektivli biznes sahələrinin inkişafı təmin ediləcəkdir.***

***Naxçıvan Muxtar Respublikası***
***İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Keyfiyyətli məhsul varsa, onun satış problemi yoxdur

## *"Bizim Qida" Məhdud Məsuliyyətli Cəmiyyəti də bu sahədə irəlidədir*

***Artıq iyirmi beş ildir ki, müstəqillik yolu ilə irəliləyirik. Əvvəllər çox əzab-əziyyət çəkmişik, çətinliklərimiz az olmayıb. Elə vaxtlar olub ki, hər hansı bir ərzaq məhsulunu almaq üçün saatlarla növbədə dayanmışıq. Ancaq ölkəmiz inkişaf edib qüdrətləndikcə yeni iqtisadi layihələrin həyata keçirilməsinə başlanıldı və bu çətinliklər də getdikcə aradan qaldırıldı.***

Ölkənin gələcək inkişaf yolunu böyük uzaqgörənliklə müəyyənləşdirən görkəmli dövlət xadimi Heydər Əliyev deyirdi: ***"...İstehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılması dövlət siyasətimizin əsas prinsipləridir".***

Bu fikirlərlə ulu öndər xalqın itməkdə olan inamını özünə qaytardı. Artıq iqtisadiyyatı 70 illik ictimai mülkiyyət sisteminin buxovlarından azad edib, ənənəvi sahibkarlıq, şəxsi mülkiyyət münasibətlərini qəti şəkildə bərpa etməyin zamanı çatmışdı. Azərbaycan xalqının zəhmətsevərliyinə, bacarığına yaxşı bələd olan ulu öndər ölkədə sahibkarlığa və sahibkarlara geniş imkanlar yaradılarsa, onların qısa zamanda iqtisadiyyatın əsas hərəkətverici qüvvəsinə çevriləcəklərinə inanırdı və bilirdi ki, iqtisadiyyatı iflic olan Azərbaycanı ayağa qaldırmaq üçün yeganə yol bazar iqtisadiyyatının prinsiplərini





tətbiq etməkdir.

Ulu öndərin müəyyənləşdirdiyi yol muxtar respublikamızda da sahibkarlar sinfinin formalaşmasına gətirib çıxardı. Ötən illər ərzində muxtar respublikada güclü sahibkarlar təbəqəsi yaradılıb.

Bu gün Naxçıvanda fəaliyyət göstərən istehsal müəssisələrində keyfiyyət amili diqqətdə saxlanılır, həmçinin insanların sağlamlığının qorunması üçün muxtar respublikamıza daxil olan məhsullara da güclü nəzarət edilir, keyfiyyəti yoxlanılır.

Muxtar respublikamızda yerli ərzaq məhsullarının satışı ilə məşğul olan "Bizim Qida" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti barədə əldə etdiyimiz ətraflı məlumatlar da bunu təsdiq edir.

Sözügedən cəmiyyət Babək rayonunun Babək qəsəbəsi ərazisində fəaliyyət göstərir. Cəmiyyətin direktoru Vaqif Əliyev deyir ki, 1993-cü ildən fəaliyyətə başlayan müəssisə 2012-ci ildə yeni ünvana köçüb. Çox az çeşidlə satışa başlayan müəssisə bu gün 1200-dən artıq məhsulun satışını həyata keçirir. Hazırda 1500 kvadratmetrə malik ərazidə müasir üslubda yenidən qurulan inzibati binada ofis, yeməkxana, iclas zalı və digər otaqlar yerləşir. Eləcə də 1000 kvadratmetrlik anbarı vardır ki, bu anbarda da məhsullar müasir standartlar əsasında qurulmuş böyük rəflərdə saxlanılır. 50 kvadratmetrlik soyuducu anbara isə, əsasən, soyuq şəraitdə saxlanılmalı olan məhsullar yığılır. Müsahibimiz bildirir ki, buradakı məhsulların satışı həm də onlayn olaraq həyata keçirilir. Belə ki, pərakəndə satış obyektlərində fəaliyyət göstərən satıcılar hər hansı bir məhsulu onlayn sifariş edə, qiyməti ilə maraqlana, şikayət və təkliflərini çatdıra bilərlər. Bundan əlavə, müəssisənin ofisindən satış obyektlərində hansı məhsulun daha çox satıldığını və ya qurtardığını şəbəkə vasitəsilə izləmək mümkündür.

Vaqif Əliyevlə söhbətimizdə onu da öyrənirik ki, müəssisənin 9 avtomobili var. Bütün rayonlara avtomobil ayrılıb, biri ehtiyat üçün müəssisədə saxlanılır. Deyir ki, mağazalara paylanan məhsulların istifadə müddəti başa çatan zaman cəmiyyət tərəfindən götürülür və müəssisədə olan xüsusi anbara gətirilir, sonra aidiyyəti orqanların nümayəndələrinin iştirakı ilə yandırılaraq məhv edilir.

Cəmiyyətin rəhbəri daha vacib bir məqam kimi onu da vurğuladı ki, hər ay Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən müxtəlif məhsullardan nümunələr götürülərək Mərkəzi qida sınaq laboratoriyasında yoxlanılır. Eləcə də hər dəfə məhsullar sərhəd-gömrük məntəqələrindən Naxçıvana daxil olanda həmin qida məhsullarından nümunələr götürülüb keyfiyyətinə baxılır.

Şübhəsiz ki, muxtar respublikada hər bir müəssisənin fəaliyyəti həm də insanların məşğulluğunun təminatı baxımından mühüm əhəmiyyət kəsb edir. Bu gün müəssisədə 45 nəfər daimi işlə təmin olunub.

Hər həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində keçirilən yarmarkalarda müəssisənin məhsulları istehlakçılara ucuz qiymətə təklif edilir.

**Hafizə ƏLİYEVA**

## Muxtar respublika ümumtəhsil məktəblərinin şagirdləri arasında fənn olimpiadalarının birinci mərhələsi keçirilib



***Ümumtəhsil məktəblərində təhsilin səviyyəsini yüksəltmək məqsədilə keçirilən sinifdənxaric və məktəbdənkənar tədbirlər mühüm əhəmiyyət kəsb edir. Belə tədbirlərdən biri də fənn olimpiadalarıdır.***

Fənn olimpiadaları şagirdlərdə özünəinam hissini formalaşdırır, onların ayrı-ayrı fənlər üzrə bilik və bacarıqlarını aşkara çıxarır, şagirdlərin ali və orta ixtisas məktəblərinə qəbulunun daha yüksək səviyyədə olmasına zəmin yaradır, təhsildə sağlam rəqabəti təmin edir. Fənn olimpiadaları Azərbaycan dili, xarici dil, riyaziyyat, fizika, kimya və biologiya fənləri daxil olmaqla VII-XI siniflər arasında təşkil olunur. Olimpiada iki mərhələdən – rayon və respublika mərhələlərindən ibarətdir. Naxçıvan Muxtar Respublikasında da fənn olimpiadalarının keçirilməsində zəngin təcrübə toplanılıb. Hər il adıçəkilən fənlər üzrə olimpiadaların keçirilməsi diqqət mərkəzində saxlanılır.

Cari tədris ilində ilk olimpiada dekabr ayının 10-da keçirilib. Muxtar respublikanın bütün şəhər və rayon mərkəzlərində keçirilən olimpiadanın birinci mərhələsində Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbdə 282, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə 171, Babək rayon Hacıvar kənd tam orta məktəbində 130, Ordubad şəhərindəki 3 nömrəli tam orta məktəbdə 124, Culfa şəhər 2 nömrəli tam orta məktəbdə 101, Şahbuz şəhər 1 nömrəli tam orta məktəbdə 80, Kəngərli rayon Xok kənd tam orta məktəbində 90, Sədərək kənd 1 nömrəli tam orta məktəbdə 40 şagird olmaqla, ümumilikdə, 1018 şagirdin iştirakı təmin edilib. Bu mərhələdə şagirdlərə 20 qapalı və 10 açıqtipli olmaqla, ümumilikdə, 30 test sualını cavablandırmaq üçün 2 saat vaxt ayrılıb.

Məlumat üçün bildirək ki, dekabrın 20-dək birinci mərhələdə qalib gələn şagirdlərin adlı siyahısı Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində yaradılmış təşkilat komitəsi tərəfindən dəqiqləşdiriləcək və onlar muxtar respublika mərhələsində iştirak etmək hüququ qazanacaqlar. Yanvar ayının ikinci bazar günü keçiriləcək olimpiadanın respublika mərhələsində münsiflər heyəti tərəfindən tədris proqramına əsasən, 20-30 açıq test təqdim olunacaq. Olimpiadanın final mərhələsində qalib gələn şagirdlər muxtar respublika təşkilat komitəsi tərəfindən diplom və qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar.

**Xəbərlər şöbəsi**

## Muxtar respublikada epidemioloji vəziyyət sabitdir

***Muxtar respublikamızda noyabr ayında epidemioloji vəziyyət sabit olub, zəhərlənmələr baş verməyib. İnfeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilib.***

Yeni doğulmuş uşaqlar idarəolunan yoluxucu xəstəliklərə görə peyvənd alıblar. Mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə qidalanma sənayesi, kommunal, ictimai iaşə, ticarət, su təchizatı, müalicə-profilaktika müəssisələrinin rəhbərlərinə müvafiq göstərişlər verilib, su təchizatı sistemlərində, ictimai, inzibati və fərdi binalarda, məişət tullantıları qoyulan meydançalarda 26 min 327 kvadratmetr sahədə dezinfeksiya və 19 min 950 kvadratmetr ərazidə dezinseksiya tədbirləri həyata keçirilib.

Uşaq-yeniyetmə müəssisələri və məktəblərdə monitorinqlər və maarifləndirici tədbirlər aparılıb.

Kəskin respirator və digər infeksion xəstəliklərin qarşısının alınması məqsədilə bütün ictimai iaşə, ticarət, su təchizatı, sərhəd-gömrük məntəqələrində profilaktik sağlamlaşdırıcı əks-epidemik tədbirlər həyata keçirilib.

Noyabr ayı ərzində bakterioloji laboratoriya fəaliyyətini davam etdirib, 32 su, 71 yuyuntu və 633 digər nümunələrin müayinələri aparılıb.

Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılıb, səhiyyə üzrə 293, təhsil üzrə 525, qidalanma sənayesi, ictimai iaşə və ticarət üzrə 86, kommunal sahələr üzrə 41, sürücülük üzrə 25 nəfər olmaqla, bütövlükdə, 970 nəfər müayinədən keçib.

Sanitariya-kimyəvi laboratoriyalar şöbəsinin qidalanma gigiyenası laboratoriyasında 4 nümunədə 11 müayinə aparılıb, o cümlədən yerli istehsal olan xörək duzu nümunələrində yodun, həmçinin 1 un nümunəsində bəsit elektrolit dəmir preparatlarının tələbata uyğunluğu müəyyən edilib.

Kommunal gigiyena laboratoriyasında 8 nümunədə 43, toksikoloji, xarici mühitdə və ərzaq məhsullarında zəhərli kimyəvi maddələrin qalıq miqdarının təyini laboratoriyasında 5 nümunədə 12 müayinə aparılıb.

Əhalinin sanitariya sahəsində maarifləndirilməsi məqsədyönlü şəkildə həyata keçirilib, 25 mühazirə oxunub, 1 seminar təşkil olunub.

Əhalinin sanitariya-epidemioloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın sanitariya-epidemioloji xidmət orqanları tərəfindən obyektlər sanitar-gigiyenik vəziyyətə görə yoxlanılıb, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün xəbərdarlıqlar edilib.

## Babək Rayon Mərkəzi Xəstəxanasında bir gündə 20 cərrahi əməliyyat aparılıb

*Muxtar respublikamızın səhiyyə sistemində həyata keçirilən islahatların mühüm bir istiqaməti də əhaliyə göstərilən tibbi xidmətin əhatəsini genişləndirmək, bölgələrdə cərrahiyyə əməliyyatlarını təşkil etmək, müayinə və müalicə işlərini daha da yaxşılaşdırmaqdan ibarətdir.*

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ məntəqələrinin səhiyyə müəssisələrində yaradılmış imkanlardan səmərəli istifadə edərək əhalinin tibbi müayinəsini və cərrahi əməliyyatları uğurla davam etdirirlər.

Yeni səhiyyə müəssisələrindən olan Babək Rayon Mərkəzi Xəstəxanasında da bir sıra cərrahi əməliyyatların aparılması üçün lazımi şərait yaradılıb. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri ötən şənbə günü bu səhiyyə müəssisəsində 20 cərrahiyyə əməliyyatı aparıb, əhaliyə təmənnasız tibbi xidmət göstəriblər.



Həkim cərrahlardan Abasət Hüseynəliyev, İsa Abdullayev, Zeynəb Məmmədova, İlhamə Əsgərova, anestezioloqlardan Aidə Məmmədova, Xətai Səfərov və əməliyyat tibb bacıları 26 xəstəni müayinə ediblər. Cərrahi müdaxiləyə ehtiyacı olan xəstələr üzərində uroloji, proktoloji qiqant yırtıq, öd kisəsi əməliyyatları aparılıb. Xəstəxanada ilk dəfə olaraq spinal anesteziya ilə yırtıq əməliyyatı icra edilib. Əməliyyatlar uğurla başa çatdırılıb, xəstələr birgünlük müşahidədən sonra evlərinə buraxılıb. Babək rayonunun Nehrəm kəndindən Əli Əliyev başqa yerlərə getmədən ərazidə yerləşən səhiyyə müəssisəsində pulsuz əməliyyat olunmasına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə göstərilən xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndirib. Digər xəstələr də tibbi xidmətdən razı qaldıqlarını bildiriblər.

Həmin gün Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçilərindən ibarət digər briqadası Cəhridə əhaliyə kütləvi tibbi xidmət göstərib. Belə ki, kənd sahə xəstəxanasında 30 nəfər ultrasəs və elektrokardioqrafiya ilə müayinə olunub, onlardan qan analizləri götürülüb, müvafiq tibbi məsləhətlər verilib. Laboratoriya işçilərinə tibbi cihaz və avadanlıqlardan istifadə qaydaları izah edilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Ötən həftənin şənbə günü Naxçıvan Dövlət Uşaq Teatrının Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, şair-dramaturq Həsənəli Eyvazlının “Nadan Xoruz” mənzum nağıl pyesi əsasında hazırladığı tamaşa uşaqlara təqdim edilib.***

## *“Nadan Xoruz”*, yaxud Tülkünün baş tutmayan kələyi

Tamaşanın məzmunu çox sadədir. Bir sıra nağıllarımızda rast gəldiyimiz Tülkü burada da hiyləgərliyi ilə seçilir. Kələkbaz Tülkü bu dəfə Nənənin toyuq-cücələrinin axırına çıxmaq üçün Xoruzla yalançı dostluq qurmaq istəyir. Nadan, eyni zamanda lovğa və təkəbbürlü Xoruz da buna inanır. Son anda Nənənin sadiq köpəyi Bozdar onları Tülkünün kələyindən xilas edir. Tamaşada lovğalıq, nadanlıq, kələkbazlıq, özünə arxayın olub, heç kəsə inanmamaq kimi mənfi xüsusiyyətlər tənqid edilir.

Tamaşada Nənə surəti Naxçıvan Dövlət Universitetinin tələbəsi Mehri Nəbiyevaya tapşırılıb. O, bu rolu balaca tamaşaçılara özünəməxsus sevgi ilə təqdim edə bilir.

Tamaşanın ən maraqlı surəti olan Tülkünü Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin şagirdi Nurgül Müslümova təbii və səmimi oyun tərzi ilə canlandırır. Nurgülün aydın diksiyası, hərəkət tərzi, mimikası uşaqlarda emosional təsir yaradır.

Tamaşanın quruluşçu rejissorları Tofiq Seyidovun və Nurbəniz Niftəliyevanın uşaqlarla işləmək bacarıqları maraqlı səhnə əsərinin yaranmasına səbəb olub. Tamaşanın musiqi tərtibatı da xoş təsir bağışlayır. Xüsusilə görkəmli bəstəkarımız Qəmbər Hüseynlinin dünya şöhrətli “Cücələrim” mahnısının səslənməsi uşaqlarda şən əhval-ruhiyyə yaradır.

Gənc rəssam Bəhruz Quliyevin dekor işi də diqqəti cəlb edir. Kənd həyatını, kənd məişətini xatırladan mənzərələr nağıl dünyası ilə vəhdətdə maraqlı görünür.

Bu il 10 yaşı tamam olan Naxçıvan Dövlət Uşaq Teatrının hazırladığı səhnə əsəri balacaların nağıl dünyasını genişləndirmək baxımından gözəl tamaşa kimi diqqəti cəlb edir.

**Əli RZAYEV**

## Basketbol çempionatında ilk dövrəyə yekun vurulub

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi basketbol üzrə muxtar respublika çempionatında yüksək və I dəstənin növbəti oyunları keçirilib və ilk dövrəyə yekun vurulub.

Yüksək dəstədə ilk dövrəni “Culfa” komandası qalib kimi başa vurub. Culfalılar son görüşdə Babək basketbolçularını səfərdə məğlub etməklə birinci yeri qazanıblar – 34:46. Turun ən maraqlı görüşü isə “Naxçıvan”-“Ordubad” komandaları arasında olub. Gərgin idman mübarizəsi şəraitində keçən görüşdə Naxçıvan basketbolçuları meydanı iki top fərqi ilə qalib tərk ediblər – 61:59.

I dəstədə isə “Şahbuz” komandası liderliyi əldə saxlayıb. Onları bu turda “Kəngərli” komandası da saxlaya bilməyib. Bu turda onlar səfərdə Kəngərli basketbolçularının qonağı olublar və meydanı 35:15 hesablı qələbə ilə tərk ediblər. “Lokomotiv” isə doğma meydanda 2 xalı “Naxçıvan” Universiteti komandası üzərində qazanıb – 33:30.

*Yüksək dəstə*

| S | Komandalar | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. | “Culfa” | 4 | 3 | 1 | 207-152 | 7 |
| 2. | “Ordubad” | 4 | 3 | 1 | 194-146 | 7 |
| 3. | “Naxçıvan” | 4 | 3 | 1 | 243-188 | 7 |
| 4. | “Babək” | 4 | 1 | 3 | 112-154 | 4 |
| 5. | “Şərur” | 4 | 0 | 4 | 95-211 | 4 |

*I dəstə*

| S | Komandalar | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. | “Şahbuz” | 4 | 4 | 0 | 177-120 | 8 |
| 2. | “Lokomotiv” | 4 | 3 | 1 | 177-126 | 7 |
| 3. | “Sədərək” | 4 | 2 | 2 | 105-118 | 6 |
| 4. | “Naxçıvan” Universiteti | 4 | 1 | 3 | 139-134 | 5 |
| 5. | “Kəngərli” | 4 | 0 | 4 | 73-173 | 4 |

**Qeyd:** S – sıra, O – oyun, Q – qələbə, M – məğlubiyyət, T/F – top fərqi, X – xal.

## Şahbuz rayonunda güləş birinciliyi

Şahbuz Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı Gənclər Birliyinin birgə təşkilatçılığı ilə Şahbuz Rayon Uşaq-gənclər idman məktəbinin güləş bölməsi qruplarının üzvləri arasında birincilik keçirilib. Uşaq-gənclər idman məktəbinin idman zalında təşkil edilən yarışdan əvvəl rayon Gənclər və İdman İdarəsinin əməkdaşı İdris Qəhrəmanov, məktəbin direktoru Ramin Qənbərov çıxış edərək yarışın keçirilməsi qaydaları haqqında məlumat veriblər. Birincilikdə 30-a yaxın güləşçi 32, 36, 48, 52, 58 və 69 kiloqram çəki dərəcələrində mübarizə aparıb. Yarışın nəticələrinə əsasən, Orxan Rüstəmli (32 kiloqram), Vüqar Məhərrəmov (36 kiloqram), Abbas Ağayev (48 kiloqram), Elşən Muradlı (52 kiloqram), Vətən Məhərrəmov (58 kiloqram) və Elxan Hüseynli (69 kiloqram) öz çəki dərəcələrində qalib olublar.

**Ceyhun MƏMMƏDOV**

## *Elan*

Naxçıvan Dövlət Universiteti 2016-2017-ci tədris ilinin qış imtahan sessiyası ilə əlaqədar qiyabiçi tələbələrin nəzərinə çatdırır:

*1. Universitetin qiyabi şöbəsinin bütün ixtisaslarında (əlavə ali təhsil də daxil olmaqla) qış imtahan sessiyası 5 yanvar 2017-ci il tarixdən başlayır və 20 iş günü davam edir.*

*2. Bütün qiyabiçi tələbələrin sessiyada iştirakı zəruridir.*

***Rektorluq***

***İtmişdir***

Naxçıvan şəhəri, A.Şadlinski küçəsi 2, ev 17-də yaşamış Paşayeva Laləzar Arif qızının adına olan 9147 inventar nömrəli texniki pasport və 04/549 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

***Bildiriş***

“Lider-C” Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200583751) fəaliyyətini dayandırdığından ləğv olunur.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 945